**Bakı Dövlət Universitetinin**
**Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin**
**2021-ci il üçün fəaliyyəti haqqında**
**HESABATI**

**(yanvar – dekabr 2021)**

Bakı Dövlət Universitetinin (BDU) Humanitar məsələlər və gənclər siyasəti şöbəsi cari il ərzində universitetin müvafiq struktur bölmələri, fakültələr və tələbə təşkilatları ilə birgə əməkdaş və tələbələrin humanitar məsələlərinin həlli, tələbə gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi, ölkədə aparılan gənclər siyasətinin mahiyyətinin tələbələrə aşılanması, ümumbəşəri və milli-mənəvi dəyərlərin qorunub saxlanılması, zərərli vərdişlərə qarşı maarifləndirici işlərin aparılması, azərbaycançılıq və dövlətçilik ənənlərinin təbliği istiqamətində tərbiyə işinin səmərəliyinin və demokratik dəyərlərin universitetdə təşviqini həyata keçirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirmişdir. Bu müddət ərzində ölkədə aparılan genişmiqyaslı sosial layihələrdə BDU əməkdaş və tələbələrinin fəal iştirakı, gənclər siyasəti ilə bağlı tədbirlərə və könüllülük hərəkatına tələbələrin fəal qoşulması təmin olunmuşdur. Sosial məsələlərlə bağlı keçirilən tədbirlərdə iştirak edərək BDU-nun sosial yönümlü tədbirləri ölkədə və digər ali təhsil müəssisələrində aparılan sosial yönümlü işlərlə əlaqələndirilmişdir. Cari ilin yanvar ayında şöbənin illik fəaliyyət planı hazırlanmış, il ərzində keçiriləcək tədbirlər və layihələr həmin fəaliyyət planında öz əksini tapmışdır. Ötən il ərzində şöbə universitetin 16 fakültəsi, tələbə təşkilatları və müxtəlif struktur bölmələri ilə bir çox istiqamətlərdə birgə fəaliyyət göstərmiş, müxtəlif mövzularda tədbirlər, konfrans və dəyirmi masalar, sərgilər və təlimlərin təşkilatçısı kimi ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinə öz töhfəsini vermişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Universitet rəhbərliyinin qərarı ilə 44 günlük Vətən müharibəsi şəhidləri və qazilərinə diqqət və qayğının artırılması istiqamətində tədbirlər planı təsdiq edilmiş və ilin əvvəlindən etibarən bu istiqamətdə Universitetdə vətən müharibəsi qazilərinin iştirakı ilə müxtəlif tədbirlər və görüşlər həyata keçirilməkdədir. Ümumilikdə 2021-ci il ərzində Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin təşkilatçılığı ilə Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, BDU Könüllüləri Təşkilatı və fakültələrdə sosial-humanitar istiqamətdə **750-dən çox tədbir keçirilmişdir. Bunlardan 313 tədbir, 28 dəyirmi masa, 151 təlim, 17 intellektual yarış, 43 ziyarət, 16 vebinar, 3 fləşmob, 89 görüş, 9 təqdimat, 8 konfrans, 22 müsabiqə, 4 simpozium, 9 sərgi, 19 videoçarx, 3 ədəbi-bədii gecə, 3 disput, 15 layihə, 2 aksiya** təşkil olunmuş və tədbirlər KİV-lərdə və eləcədə universitetin rəsmi saytında və sosial mediada geniş işıqlandırılmışdır.




| | | |
|---|---|---|
| 313 tədbir | 28 dəyirmi masa | 151 təlim |
| 43 ziyarət | 16 vebinar | 89 görüş |
| 3 fləşmob | 9 təqdimat | 8 konfrans |

22 müsabiqə

4 simpozium

9 sərgi

19 videoçarx

3 ədəbi-bədii gecə

3 disput

15 layihə

2 aksiya

**BDU-nun əməkdaş və tələbələrinin vaksinasiyası**

Bakı Dövlət Universitetinin kollektivi Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq könüllü şəkildə peyvəndlənmə prosesində fəal iştirak etmişlər. BDU-nun müraciətini nəzərə alaraq TƏBİB tərəfindən Universitetin ərazisindəki poliklinikada 2 dəfə (aprel-may) və  (22 noyabr) aylarında olmaqla səyyar vaksinasiya məntəqəsi yaradılmış və poliklinikada 2 qeydiyyat, 2 müayinə, 2 vaksinasiya otağı ən zəruri tibbi ləvazimat və müvafiq şəraitlə təmin olunnuşdur  Vaksinasiyanı TƏBİB-in peşəkar həkim briqadası həyata keçirmişdir. BDU əməkdaşları könüllü şəkildə məntəqəyə gələrək xüsusi karantin rejiminin tələblərinə ciddi riayət etməklə vaksinasiya olunublar. Əməkdaşlar üçün bütün zəruri avadanlıq və şəraitlə, dezinfeksiyaedici məhlullarla təmin edilmiş gözləmə və istirahət otaqları yaradılmışdır.Ölkəmizdə həyata keçirilən vaksinasiya strategiyasına uyğun olaraq hazırda **BDU-nun 2680 nəfər əməkdaş və müəllimlərinin 2399 nəfəri vaksin olunmuşdur**. Müəllim və əməkdaşlarla yanaşı təhsilalanların vaksinasiya prosesi

də uğurla həyata keçirilmiş, cari ilin avqust ayının 1-dən başlayaraq tələbələrin vaksinasiya prosesinə start verilmişdir. Hal-hazırda BDU-da təhsilalanların **97%-i (19207 nəfər)** peyvənd olunmuşdur. Hazırda 3-cü doza (booster) vaksinasiya mərhələsi davam etməkdədir. Bu istiqamətdə davamlı işlər həyata keçirilir. Qeyd edilməlidir ki, Universitetin poliklinikasında təşkil olunan vaksinasiya prosesinin təşkilində BDU-nun Həmkarlar İttifaqı Komitəsi, tələbə təşkilatları və könüllülər yaxından iştirak etmişlər.






**“20 Yanvar faciəsinin otuz birinci ildönümü” ilə əlaqədar keçirilən tədbirlər**

Təhsil nazirinin müvafiq əmri ilə təsdiqlənmiş “20 Yanvar faciəsinin otuz birinci ildönümü ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planı”na əsasən Bakı Dövlət Universitetində Universitet rektorunun əmri ilə təsdiq olunmuş tədbirlər planı işlənib hazırlanmış və bu sitiqamətdə fakültələr, struktur bölmələr və fakültələrdə **3 ziyarət, 1 sərgi və 10-dan çox tədbir həyata keçirilmişdir.**

- 2021-ci il 19 yanvar tarixində BDU-nun həyətində 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilmişdir.
- 20 yanvar 2021-ci il tarixində BDU-nun kollektivi Şəhidlər Xiyabanını ziyarət etmişlər
- 19 yanvar 2021-ci il tarixində BDU-nun Tələbə Gənclər Təşkilatının üzvəri Şəhidlər Xiyabanını ziyarət etmişlər.
- 2021-ci il 19 yanvar tarixində BDU-da 20 Yanvar faciəsinin otuz birinci ildönümümünə həsr olunmuş “20 yanvar - Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi” mövzusunda dəyirmi masa keçirilib. Onlayn dəyirmi masada Universitetin rektoru, millət vəkilləri, ictimai xadimlər, professor-müəllim heyəti və tələbələr iştirak etmişdir.

- BDU-nun Elmi Kitabxanası və Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin təşkilatçılığı ilə Universitetin foyesində 20 yanvar faciəsinə həsr olunmuş sərgi nümayiş etdirilmişdir. Sərgidə 20 yanvar faciəsinə həsr olunmuş kitablar və bu qanlı gecənin dəhşətlərini əks etdirən fotoşəkillər nümayiş etdirimişdir.
- 19 yanvar 2021-ci il tarixində Bakı Dövlət Universiteti nəzdində "Gənc istedadlar" liseyində xüsusi dərslər keçirilmişdir.
- 19 yanvar 2021-ci i tarixində Tarix fakültəsində "20 yanvar faciəsi"nin 31-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir.
- 19 yanvar 2021-ci il tarixində Filologiya fakültəsi 4-cü kurs tələbəsi Sərxan Şahverdiyevin həmmüəllifliyi ilə ""Zəfər tariximiz" adlı kitab işıq üzü görüb.
- 20 yanvar 2021-ci il tarixində Kimya lfakültəsində "Qanlı Yanvar" adlı onlayn tədbir keçirilib.
- 20 yanvar 2021-ci il tarixində Filologiya fakültəsində "Qəhrəmanlıq və qürur günümüz" adlı anım tədbiri keçirilib.

**"2 fevral - Gənclər günü" ilə bağlı keçirilən tədbirlər**

- 1 fevral 2021-ci il tarixində Filologiya fakültəsində TGT, THİK, TEC-in birgə təşəbbüsü ilə "Müasir Azərbaycan gənci" adlı onlayn tədbir keçirilib.
- "2 fevral - Gənclər günü" münasibətilə BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin və Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Gənclik mahnısı" kompozisiyası nümayiş olunub.
- 2 fevral 2021-ci il tarixində "2 fevral - Gənclər günü" münasibətilə TGT və THİK-nin birgə təşkilatçılığı ilə Kimya fakültəsində "Gənclər siyasətində Tələbə Gənclərin yeri və rolu" adlı onlayn tədbir keçirilib.
- 2 fevral 2021-ci il tarixində Hüquq və Kimya fakültələrinin TGT və THİK-nin birgə təşkilatçılığı ilə "Birlik və Həmrəylik Qüdrətli Gələcəyin Əsasıdır" adlı onlayn tədbir keçirilib.
- 2 fevral 2021-ci il tarixində "2 Fevral – Azərbaycan Gənclər Gününə" həsr olunmuş onlayn tədbir keçirilib. Tədbirdə Universitetin rektoru, Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, millət

vəkilləri Sevinc Fətəliyeva, və Şahin Seyidzadə, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli iştirak ediblər.

**“Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümü” ilə əlaqədar keçirilən tədbirlər**

Azərbaycan Respublikasının təhsil nazirinin 2 fevral 2021-ci il tarixli müvafiq əmri ilə təsdiq edilmiş “Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin Tədbirlər Planı”na uyğun olaraq Bakı Dövlət Universitetində bu istiqamətdə Tədbirlər Planı hazıranmışdır. Və bu plana uyğun olaraq Xocalı faciəsinə həsr olunmuş **15 tədbir, 1 ziyarət və 1 sərgi** həyata keçirilmiş və KİV-lərdə işıqlandırılmışdır.

- 22-26 fevral tarixlərində BDU-nun Elmi Kitabxanası və Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin birgə təşkilatçılığı ilə Xocalı faciəsinə həsr olunmuş sərgi nümayiş etdirilib. Universitetin foyesində nümayiş olunan sərgidə Xocalı faciəsinin dəhşətlərini əks etdirən fotoşəkillər və bu mövzuda müxtəlif müəlliflərin kitabları nümayiş etdirilib.
- 24 fevral 2021-ci il tarixində BDU-da “Xocalı soyqırımının tarixi, siyasi və hüquqi aspektləri” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.
- 24 fevral 2021-ci il tarixində BDU-nun Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Xocalı Soyqırımına həsr olunmuş “Unudulmaz hüzn yaddaşımız” adlı tədbir keçirilib.
- fevral 2021-ci il tarixində BDU-nun Filologiya fakültəsində THİK-nin təşəbbüsü ilə Xocalı soyqırımına həsr olunmuş onlayn tədbir keçirilib.
- 25 fevral 2021-ci il tarixində BDU-nun Hüquq fakültəsi və Azərbaycan Respublikası Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə “Xocalı soyqırımı beynəlxalq cinayətdir: hüquqi və siyasi təhlillər” mövzusunda konfrans keçirilib.
- 25 fevral 2021-ci il tarixində BDU-nun Jurnalistika fakültəsində THİK-nin təşkilatçılığı ilə Xocalı faciəsinin il dönümünə həsr edilmiş tədbir keçirilib.
- 25 fevral 2021-ci il tarixində BDU-nun Coğrafiya fakültəsində “Qan yaddaşımız - Xocalı” adlı onlayn tədbir keçirilib.
- 26 fevral 2021-ci il tarixində BDU-nun rəhbərliyi və bir qrup kollektivi “Ana harayı” abidəsini ziyarət edib, Xocalı qurbanlarının xatirəsini ehtiramla yad ediblər.
- 26 fevral 2021-ci il tarixində əcnəbi tələbələrin iştirakı və çıxışları ilə “Xocalı qətliamı əcnəbi tələbələrin gözü ilə” adlı onlayn tədbir keçirilib.

- 26 fevral 2021-ci il tarixində BDU-da "Xocalı faciəsi – insanlığa qarşı törədilmiş bəşəri cinayət" adlı beynəlxalq tədbir keçirilib. Tədbirdə universitetin rektoru, diplomatik korpusun numayəndələri, səfirlər və millət vəkilləri iştirak ediblər.
- 26 fevral 2021-ci il tarixində BDU-nun Mexanika-riyaziyyat və Tətbiqi riyaziyyat və kibernetika fakültələrinin Tələbə Gənclər Təşkilatlarının (TGT) təşəbbüsü ilə "26 Fevral – Qan Yaddaşımız" adlı onlayn tədbir keçirilib.
- 26 fevral 2021-ci il tarixində BDU-nun Şərqşünaslıq fakültəsində "Xocalı – qan yaddaşımız" adlı dəyirmi masa keçirilib.
- 26 fevral 2021-ci il tarixində BDU-nun Fizika fakültəsində "Xocalı faciəsi dünya mətbuatında" adlı anım tədbiri keçirilib.
- 26 fevral 2021-ci il tarixində BDU-nun Filologiya fakültəsində Xocalı faciəsinə həsr edilmiş anım tədbiri keçirilib.
- 27 fevral 2021-ci il tarixində BDU-nun Hüquq fakültəsi və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Xocalı faciəsinə hüquqi baxış" mövzusunda Beynəlxalq Simpozium keçirilib.

**BDU-da şəhid və qazi məzunlarla bağlı həyata keçirilən tədbirlər barədə**

2020-ci ilin sentyabr ayının 27-də başlanan və Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Şanlı Ordumuzun Böyük Qələbəsi ilə başa çatan və Azərbaycan tarixinə əbədi həkk olunan 44 günlük Vətən Müharibəsində Bakı Dövlət Universitetinin (BDU) tələbə və məzunları da qəhrəmancasına iştirak etmiş, həm ön, həm də arxa cəbhədə böyük şücaət və rəşadətlə mübarizə aparmışlar. Vətən müharibəsində Bakı Dövlət Universitetinin ***200 nəfərə yaxın məzunu iştirak etmiş, 19 nəfəri şəhidlik zirvəsinə ucalmışdır:***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid tələbə və məzunlarımız müxtəlif orden və medallarla təltif edilmişdir.

Universitetin kollektivi, struktur bölmələri, eləcə də tələbə təşkilatları şəhidlərimizin xatirəsini daim uca tutmaq, tələbə-gəncləri şəhid və qazilərimizin qəhrəmanlıqları ilə tanış etmək məqsədilə mütəmadi tədbirlər həyata keçirir. Universitet rəhbərliyinin qərarına əsasən,

şəhidlərimizin xatirəsinin uca tutulması, şəhidlik zirvəsinə ucalmış məzunlarımıza diqqət və qayğı göstərilməsi, qazi tələbələrimizin təhsil problemlərinin öyrənilməsi və həlli istiqamətində müvafiq dəstəyin göstərilməsi, qəhrəman məzunların fakültələrdə tələbələrlə görüşlərinin keçirilməsini və s. nəzərdə tutan Tədbirlər Planı işlənilib hazırlanmışdır.

Tədbirlər Planına müvafiq olaraq, Şanlı Qələbəmizdən keçən bir il ərzində şəhidlərimizin xatirəsinin əziz tutulması, qəhrəman döyüşçülərimizin təhsil problemlərinin öyrənilməsi və onlara qayğı və diqqət göstərilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

***BDU-nun şəhid tələbə və məzunlarının xatirə guşəsi yaradılmışdır.*** BDU-nun əsas binasının foyesində BDU-nun şəhid tələbə və məzunlarının xatirə guşəsində müqəddəs şəhidlərimizin hər birinin fotoşəkli və məzun olduğu fakültəəks olunmuşdur.

***Vətən müharibəsində iştirak etmiş BDU tələbələrinin təhsil problemləri diqqətlə təhlil edilir, onlara pedaqoji, metodiki dəstəyin göstərilməsi istiqamətində müntəzəm iş aparılmışdır.*** BDU Elmi Şurasının 2021-ci il 3 fevral tarixli iclasının qərarı ilə Vətən Müharibəsi iştirakçısı olmuş alt qruplarda təhsil alan BDU tələbələrinin ödənişləri BDU büdcəsindən ödənilir. Həmçinin müharibə iştirakçısı olan tələbələrin təhsil problemlərini həll etmək üçün, qanunvericiliyə müvafiq olaraq, bütün şərait yaradılır.

***BDU-nun şəhid məzunlarına həsr olunmuş videoçarxlar hazırlanaraq təqdim edilmişdir.*** BDU TV və BDU Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə şəhid və qazi tələbə və məzunlarımıza həsr olunmuş, onların keçdiyi şərəfli döyüş yolu, valideynlərinin, ailə üzvlərinin, tələbə yoldaşları və müəllimlərinin xatirələrinin əks olunduğu videoçarxların hazırlanmasına başlanılmışdır. Sosial elmlər və psixologiya fakültəsinin şəhidlik zirvəsinə ucalmış məzunu Cavid Manafova həsr olunmuş ilk videoçarx ictimaiyyətə təqdim edilmişdir. Hazırda Vətən müharibəsində şəhid olan digər tələbə və məzunları haqqında videoçarxlar hazırlanır.

Hüquq fakültəsində də "Qəhrəmanını tanı" layihəsi çərçivəsində qəhrəmalarımızın gənclər arasında tanıdılması məqsədilə videoçarxlar hazırlanır. İlk videoçarx Hüquq fakültəsinin Vətən Müharibəsində rəşadətlə döyüşmüş və şəhidlik zirvəsinə ucalmış məzunu Ceyhun Şalıyevə həsr olunmuşdur.

***BDU TV-də BDU-nun 19 nəfər şəhid məzunu haqqında sənədli film hazırlanmışdır.***

***BDU-nun şəhid məzunlarının ailələri ilə mütəmadi əlaqə saxlanılır*, *onlara diqqət və qayğı göstərilir, şəhid valideynləri Universitetdə təşkil olunan tədbirlərə dəvət olunmuşlar.*** BDU-nun rəhbərliyi, professor-müəllim heyəti, eləcə də tələbə təşkilatlarının üzvləri şəhid məzunların ailələrini ziyarət edir, onlarla müntəzəm əlaqə saxlayırlar.

BDU və Missiya internet televiziyasının birgə layihəsi – “BDU-nun tarix yazan şəhid məzunları” layihəsi çərçivəsində şəhidlər haqqında reportajlar hazırlanmışdır. Layihənin məqsədi Universitetin şəhidlik zirvəsinə ucalmış məzunlarının xatirəsini yaşatmaq, onların şərəfli döyüş yolunu yaddaşlara əbədi həkk etməkdir. Bu məqsədlə Universitet kollektivinin və tələbə təşkilatlarının iştirakı ilə ziyarət olunan şəhid ailələrindən reportajlar hazırlanmış və geniş ictimaiyyətə təqdim edilmişdir. Layihə çərçivəsində BDU-nun şəhid tələbə məzunlarından Cavid Manafov, Nicat Əhmədov, Şamil Nəcəfov, Manaf Bəhmənli, Ceyhun Şalıyev, Vüqar Məmmədov, Ataməli Musaoğlu haqqında reportajlar hazırlanmışdır. Reportajlarda şəhid məzunlarımızın həyat yolu və keçdikləri şərəfli döyüş yolu barəsində həm valideynlərinin, həm də Universitet müəllimlərinin fikirləri öz əksini tapır. Layihə çərçivəsində ***9 şəhid məzun haqqında reportajlar hazırlanmış və sosial mediada işıqlandırılmışdır.***

2021-ci il 10 iyun tarixində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və Universitetin əməkdaşları Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu, Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Şamil Nəcəfovun ailə ilə görüşmüş, məzarını ziyarət etmişdir. Şəhidin ali təhsil haqqında diplomu valideynlərinə təqdim olunmuşdur.

***BDU-nun şəhid tələbə və məzunları və qazi tələbələri haqqında məqalələr, müsahibələr hazırlanaraq ölkənin kütləvi informasiya vasitələrində dərc olunmuşdur***. Qəhrəmanlarımızın keçdiyi şərəfli döyüş yolu, eləcə də onlar haqqında xatirələr qələmə alınaraq mətbuatda işıqlandırılır. Sosial elmlər və psixologiya fakültəsinin şəhid məzunu Cavid Manafovun dayısı qızı Nigar İbrahimovadan müsahibə alınmış, Jurnalistika fakültəsinin tələbəsi Əsgər İsmayılov “Xarı bülbülün yarı Şuşa” adlı məqalə hazırlamış və mətbuatda işıqlandırılmışdır. Jurnalistika fakültəsinin magistrantı Kənan Novruzovun Vətən Müharibəsi qazisi Elmir Səftərov haqqında, Tarix fakültəsinin şəhid məzunu Elşən Salayev haqqında “Şəhid əsgərin atası: Onu arxeologiya dəlisi adlandırırdılar”, “44 gün” adlı sənədli film: Şaxta sümüyümüzü kəssə də”, “Qələmini süngüyə çevirən jurnalist - baş leytenant: cibində vəsiyyətini yazdığı kağız var idi”, “Tələbə-həkimdən təsirli sözlər: Yaralı əsgərlər ağlayıb deyirdilər ki.. ağ ümid”, “Şəhidlərin portretini çəkən rəssam: Allahdan başqa nə istəyirəm ki”, BDU-nun Biologiya fakültəsinin şəhid məzunu Tərxan Qurbanov haqqında hazırladığı silsilə yazılar və s. mətbuatda dərc edilmişdir.

Eləcə də BDU-nun rəsmi saytı, sosial media hesabları və “Bakı Universiteti” qəzetində şəhid tələbə və məzunlarımız, qəhrəman qazilərimiz haqqında mütəmadi olaraq materiallar dərc olunmuşdur.

***Vətən Müharibəsi iştirakçısı olan tələbə və məzunlarla onlayn mütəmadi görüşlər, dəyirmi masalar və s. keçirilmişdir.*** 2021-ci il 11 fevral tarixində Şərqşünaslıq, 2021-ci il 12

fevral tarixində Tətbiqi riyaziyyat və kibernetika,  2021-ci il 15 fevral tarixində Tarix, 2021-ci il 15 fevral tarixində Hüquq, 2021-ci il 22 fevral tarixində Coğrafiya fakültəsində Vətən Müharibəsi iştirakçısı olan BDU tələbə və məzunları ilə tələbələrin onlayn görüşü keçirilmişdir.

2021-ci ilin 12 mart tarixində Kitabxanaçılıq-informasiya fakültəsində şəhid ailələri, əsgər anaları və Vətən Müharibəsi qaziləri ilə dəyirmi masa təşkil olunmuşdur.

17 mart 2021-ci il tarixində BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Şəhid ailələrinə və qazilərə qayğı hər birimizin borcudur" adlı onlayn tədbir keçirilmişdir.  03 aprel 2021-ci il tarixində Mexanika-riyaziyyat fakültəsində Aprel döyüşlərinin 5 illiyinə həsr olunmuş qazilərlə tələbələrin görüşü, 15 aprel 2021-ci il tarixində isə Jurnalistika fakültəsində fakültənin Vətən Müharibəsində iştirak edən qazilərlə tələbələrin görüşü keçirilmişdir.

2021-ci il 16 mart tarixində Filologiya fakültəsinin təşkilatçılığı ilə "Zəfər yolu" adlı onlayn tədbir keçirilmişdir. Tədbirdə fakültənin məzunları, Vətən Müharibəsi iştirakçıları Ülvi Əhmədov, Oktay Cahangirov və Elnur Soltanov öz döyüş yolları haqqında danışmışlar.

2021-ci il 16 mart tarixində TGT və Şərqşünaslıq fakültəsinin təşəbbüsü ilə keçirilən, şəhid Xudayar Yusifzadənin xatirəsinə həsr olunmuş tədbirdə qazilərlə görüş tələbələrdə böyük təəssürat yaratmışdır.

2021-ci ilin 14 aprel tarixində BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Şəhidlər – mənəviyyata açılan pəncərə" adlı onlayn tədbir keçirilmişdir.

2021-ci ilin 12 iyul tarixində BDU-nun şəhid məzunu Cavid Manafovun yaşadığı ünvanında barelyefinin açılış mərasimi keçirilmişdir. Açılış mərasimində BDU-nun rəhbərliyi, şəhid Cavid Manafovun təhsil aldığı Sosial elmlər və psixologiya fakültəsinin rəhbərliyi, tələbə təşkilatlarının üzvləri iştirak etmişlər.

***Vətən Müharibəsinə həsr olunmuş müsabiqələr keçirilmişdir.*** 2020-ci ilin 15 dekabr tarixində "Vətən müharibəsi BDU tələbələrinin gözü ilə" onlayn rəsm müsabiqəsi elan olunmuş, müasbiqə qaliblərinin əsərləri KİV-də dərc olunmuşdur.

2021-ci il 2 mart tarixində Kimya fakültəsində "Qarabağa bahar gəldi" onlayn rəsm müsabiqəsi elan edilmiş, müsabiqəyə tələbələr parlaq Qələbəmiz və qəhrəman əsgərlərimizə həsr etdikləri rəsmləri təqdim etmişdir.

***BDU-nun şəhid məzunlarına həsr olunmuş kitabın ilkin variantı hazırlanmışdır.*** Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış BDU-nun məzunlarının xatirəsini yaşatmaq və onların keçdiyi qəhrəmanlıq yolunu gənclər arasında tanıtmaq  məqsədilə xatirə kitabı nəşrə hazırlanır. Kitabda BDU-nun 18 qəhrəman şəhid məzunu haqqında müəllimlərinin və tələbə yoldaşlarının fikirləri də öz əksini tapacaqdır.

Tədbirlər Planına müvafiq olaraq BDU-da Vətən Müharibəsində iştirak edən, ərazi bütövlüyümüzün bərpası uğrunda canını fəda edən və şəhidlik zirvəsinə ucalmış tələbə və məzunlar, müharibə iştirakçıları ilə bağlı müxtəlif layihələr, tədbirlər davam edir. Qeyd etmək lazımdır ki, 2021-ci il ərzində bu istiqamətdə Universitetdə ***19 şəhid məzunun ailəsi ziyarət edilmiş, qazilər və müharibə iştirakçılarının gənclər arasında tanıdılması istiqamətində 40-dan çox tədbir və görüş keçirilmişdir.***

**27 Sentyabr – Anım Günü və 8 Noyabr – Zəfər Günü ilə bağlı**
**Universitetdə həyata keçirilən tədbirlər**

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin ildönümü ilə bağlı Təhsil nazirliyinin tədbirlər planına uyğun olaraq Bakı Dövlət Universitetində Universitet rektorunun əmri ilə təsdiq olunmuş tədbirlər planı hazırlanmış və 27-sentyabr Anım Günü və 8 noyabr Zəfər günü ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilmişdir. Tədbirlər Planına müvafiq olaraq BDU-da, BDU-nun nəzdində elmi-tədqiqat institutlarında, İqtisadiyyat və Humanitar Kollecdə və Gənc istedadlar liseyində və BDU-nun Qazax filialında silsilə tədbirlər keçirilmişdir. 27 Sentyabr – Anım Günü və 8 Noyabr – Zəfər Günü ilə bağlı BDU-da **2 beynəlxalq elmi konfrans, 1 konfrans, 1 beynəlxalq dəyirmi masa, 3 dəyirmi masa, 16 onlayn tədbir, 3 sərgi, 4 müsabiqə və 1 film gecəsi təşkil edilmiş, 1 kompozisiya, 1 ağacəkmə aksiyası, 3 intellektual yarış, 2 fləşmob**, **1 videoçarx** hazırlanmış, tədbirlər ölkə mətbuatında işıqlandırılmışdır

**"Nizami Gəncəvi İli" çərçivəsində həyata keçirilən tədbirlər**

Məlumdur ki, 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilmişdir. Dövlət başçısı qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək

mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq bu ili ölkəmizdə “Nizami Gəncəvi İli” elan edib. Bu istiqamətdə Bakı Dövlət Universitetində Nizami Gəncəvi İli ilə bağlı Tədbirlər Planı hazırlanmış, Təşkilat Komitəsi təsis edilmişdir. Nizami Gəncəvinin dərin irsinin öyrənilməsi və tələbə gənclər arasında təşviq edilməsi istiqamətində Universitetdə il ərzində fakültə, struktur, kollec və tələbə təşkilatları tərəfindən **25-dən çox elmi seminar, 11 tədbir, 3 layihə, 5 müsabiqə, 3 dəyirmi masa, 2 videoçarx, 1 sərgi, 1 konfrans, 1 beynəxalq konfrans, 1 biik yarışı, və s.** həyata keçirilmiş və KİV-lərdə işıqlandırılmışdır.

**24 fevral 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsində akademik Rafael Hüseynovun iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə BDU-nun rektoru Elçin Babayev, Şərqşünaslıq fakültəsinin rəhbərliyi, professor-müəllim heyəti, tələbə və magistrantlar, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik, millət vəkili Rafael Hüseynov iştirak etmişlər.

**24 fevral 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsində “Nizami Gəncəvi və orta əsrlər Şərq kitab mədəniyyətinin mənzərəsi” mövzusunda onlayn elmi seminar keçirilmişdir. Elmi seminarda BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan , Professor Xəlil İsmayılov, dekan müavinləri Mehmanəli Məmmədov, Zahidə Rzayeva, kafedra müdirləri Nadir İsmayılov, Elçin Əhmədov, Sevda Xələfova, dosent Pərviz Kazımi məruzələrlə çıxış etmişlər.

**03 mart 2021-ci il tarixində** Filologiya fakültəsində Nizami yaradıcılığında Novruz ənənələri” adlı elmi seminar keçirilmişdir. Elmi seminarda Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucova dahi Azərbaycan şairinin yaradıcılığında folklor məsələlərindən bəhs edib, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının doktorantı Aynurə Allahverdiyeva “Nizami yaradıcılığında bahar”, kafedranın magistrantları Günay Mirzəyeva “Nizami yaradıcılığında su və od ünsürləri”, Nərminə Xanəliyeva “Nizami yaradıcılığında torpaq və hava ünsürləri” adlı məruzələrlə çıxış ediblər.

**04 mart 2021-ci il tarixində** ölkəmizdə “Nizami ili” elan olunması ilə əlaqədar İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin təşkilatçılığı ilə Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, Nizami irsinin tədqiqatçısı Sevinc Qocayeva ilə müsahibə təşkil olunmuşdur

**15 mart 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) birgə təşkilatçılığı ilə “Nizami “Xəmsə”si və mənzum romançılıq ənənələri” mövzusunda müzakirə keçirilmişdir. Müzakirədə Azərbaycan Yazıçılar Birliyi (AYB) İdarə Heyətinin üzvü, ədəbiyyatşünas Əsəd Cahangir, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsini icra edən Ələmdar Bayramov və Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan çıxış etmişlər.

**19 mart 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsində Nizaminin “Yeddi Gözəl” əsəri barəsində dəyirmi masa keçirilmişdir. Dəyirmi masada fakültənin dekan müavini Şahin Yusifli, İran filologiyası kafedrasının müdiri, nizamişünas professor Mehdi Kazımov, Qazaxıstan Respublikasının fəxri professoru Qalib Sayılov, Türk filologiyası kafedrasının dosenti Aydan Xəndan, İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova çıxış etmişlər.

**02 aprel 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsi və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə “Nizami Gəncəvi əsərlərinin əlyazma nüsxələri dünya arxiv və kitabxanalarında” mövzusunda elmi seminar keçirilmişdir. Seminarda Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistrantı İlahə Əhmədova, fakültənin dekan müavini Zahidə Rzayeva, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, dosent Nailə Mehrəliyeva, fəlsəfə doktorları Sevda Quliyeva, Leyla Abasova, fakültə TEC-in sədri Ülkər Cabbarova məruzələrlə çıxış etmişlər.

Filologiya fakültəsinin təşkilatçılığı ilə “Nizaminin söz dünyası” adlı bədii qiraət layihəsinin silsilə təqdimatları keçirilmişdir.

Filologiya fakültəsinin və fakültə Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Nizami Gəncəvi irsinin öyrənilməsi” layihəsi çərçivəsində silsilə yazı müsabiqəsi keçirilmişdir.

Filologiya fakültəsinin təşkiatçılığı ilə “Nizaminin hikmət xəzinəsi” adlı silsilə videoçarxlar hazırlanmışdır

**03 aprel 2021-ci il tarixində** Filologiya fakültəsində Nizami yaradıcılığında didaktik motivlər” mövzusunda elmi seminar keçirilmişdir. Seminarda ETL-in elmi işçisi, filologiya üzrə fəlsəfə

doktoru Ramil Bayramov, Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini dosent Mehriban Əlizadə, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının əməkdaşları - professor Mətanət Abdullayeva, dosent Məhbubə Qurbanova məruzələrlə çıxış etmişlər.

**04 aprel 2021-ci il tarixində** Filologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərinin müzakirəsi keçirilmişdir. Müzakirədə fakültə tələbələri - Xanım Heybətova, Bəsti Baxşalıyeva, Rəhiməxanım Əlipənahova, Esmira Babaşlı, Günel Əliyeva, Səadət Hüseynova, Ofeliya Xancanova, Ləman Cəfərzadə, Fidan Əsgərova, Türkan Hüseynova mövzü ətrafında çıxış etmişlər.

**08 aprel 2021-ci il tarixində** Filologiya fakültəsində "Nizami və dünya ədəbiyyatı" mövuzusunda elmi seminar keçirilmişdir. Seminarda BDU-nun Dünya ədəbiyyatı kafedrasının müdiri, professor Cəlil Nağıyev, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi dosent Əzizağa Nəcəfov, BDU-nun Dünya ədəbiyyatı kafedrasının dosentləri - Sevinc Məmmədova, Nüşabə Sadıxlı və İlqar Hüseynov, Azərbaycan dilçiliyi kafedrasının dosenti Fikrət Şiriyev məruzələrlə çıxış etmişlər.

**12 aprel 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsi və fakültə Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi irsində mütaliə" mövzusunda elmi seminar keçirilmişdir. Seminarda fakültənin dekan müavini Mehmanəli Məmmədov, Kitabxanaşünaslıq kafedrasının müdiri Elçin Əhmədov, dosent Elçin Məmmədov, fəlsəfə doktoru Eldəniz Məmmədov, fakültə Tələbə Elmi Cəmiyyətinin sədri Ülkər Cabarova məruzələrlə çıxış etmişlər.

**17 və 18 aprel 2021-ci il tarixlərində** Filologiya fakültəsinin təşkilatçılığı ilə Nizami və Qərb dünyası" mövzusunda elmi seminarlar silsiləsi keçirilmişdir. Silsilə seminarlarda Filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov, Alman və fransız dilləri kafedrasının müdiri dosent Elmira Fərəcullayeva, Alman və fransız dilləri kafedrasının əməkdaşları – dosent Azelma Həsənova, filologiya üzrə fəlsəfə doktoru Mətanət Əliyeva, müəllimlər - İradə Əmiraslanova, Ulduzə İsmayılova və Ləman Şıxəlizadə, kafedranın müəllimi Vüsalə Nəbiyeva, kafedranın müəllimi Vüsalə Nəbiyeva, Fillologiya fakültəsinin elmi işlər üzrə dekan müavini dosent Mehriban Əlizadə məruzələrlə çıxış etmişlər.

**20 aprel 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsində "Nizami əsərlərinin kompozisiyası və bədii xüsusiyyətləri" adlı tədbir keçirilmişdir. Tədbirdə fakültənin dekan müavini Şahin Yusifli , İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova, Azərbaycan Musiqi

Akademiyasının Dillər və ədəbiyyat kafedrasının müdiri, professor Tərlan Quliyev, İran filologiyası kafedrasının dosenti İlhamə Məmmədova, Ərəb filologiyası kafedrasının dosenti Heybət Heybətov və fakültənin tədris işləri üzrə dekan müavini Tərlan Məlikov mövzü ətrafında çıxışlar etmişlər.

**21 aprel 2021-ci il tarixində** BDU-nun Elmi Kitabxanasının təşkilatçılığı ilə Nizami Gəncəvi əsərlərindən ibarət sərgi təşkil olunmuşdur.

**21 aprel 2021-ci il tarixində** Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Kimya fakültəsində "Nizami Gəncəvi xəmsəsi" adlı tədbir keçirilmişdir. Tədbirdə Fakültənin TGT sədri Əli Qədirli, uşaq hekayələri yazarı Çinarə Köçərli, "Məktəb guşəsi" jurnalının və saytının baş redaktoru Məzahir Məmmədli və BDU-nun Filologiya fakültəsinin müəllimi Ramil Bayramov mövzu ətrafında çıxışlar etmişlər.

**26 aprel 2021-ci il tarixində** Filologiya fakültəsində "Nizaminin dili və Azərbaycan" mövzusunda onlayn elmi seminar keçirilmişdir. Seminarda Azərbaycan dilçiliyi kafedrasının müdiri professor Sənubər Abdullayeva, dosent Fikrət Şiriyev, dosent Reyhan Həbibli məruzələrlə çıxış etmişlər.

**28 aprel 2021-ci il tarixində** Filologiya fakültəsi və Universitetin nəzdində fəaliyyət göstərən "Gənc İstedadlar" Liseyinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi - qüvvət elmdədir" mövzusunda konfrans keçirilmişdir. Konfansda Liseyin direktoru Arif Bağırov, Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov və liseyin direktor müavini, dosent Məleykə Bayramova, Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Lalə Əliyeva, Liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Gülşən Əliyeva, Filologiya fakültəsinin IV kurs tələbəsi İlknur Pənahlı, Liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Yaqut Hüseynova, tələbə və şagirdlər iştirak etmişlər.

**29 aprel 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsində "Nizami və türkçülük" adlı vebinar keçirilmişdir. Vebinarda BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik, millət vəkili Nizami Cəfərov, Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov, İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmmədova məruzələrlə çıxış etmişlər.

**29 aprel 2021-ci il tarixində** Filologiya fakültəsində "Nizami Gəncəvi yaradıcılığı rus ədəbiyyatşünaslığında" mövzusunda seminar keçirilmişdir. Seminarda Filologiya fakültəsinin professoru Ədibə Paşayeva, fakültənin müəllimləri Solmaz Əliyeva, Leyla, Gərayzadə, Tofiq Məmmədov, Aysel Bağırova, İbrahim Əsədov, Elçin Məmmədov məruzələrlə çıxış etmişlər.

**30 aprel 2021-ci il tarixində** Tədrisin təşkili və idarə olunması Mərkəzinin Hazırlıq sektorunun təşkilatçılığı ilə BDU-da təhsil alan əcnəbi tələbələrin iştirakı ilə “Dövr və zaman anlayışını unutduran böyük söz ustadı” adlı tədbir keçirilmişdir. Tədbirdə Hazırlıq sektorunun baş mütəxəssisi, dosent Naibə Rzayeva, BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, BDU-nun dosenti Şərəf Cəlilli, Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri Hüseyn Əsgərov, professor Mətanət Abdullayeva və dosent Əhəd Cavadov və  əcnəbi tələbələr mövzu ətrafında çıxışlar etmişlər.

**04 may 2021-ci il tarixində** Sosial elmlər və Psixologiya fakültəsində “Nizami fəlsəfi irsi və müasirlik” mövzusunda onlayn tədbir keçirilmişdir. Tədbirdə Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanova, Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmı işçisi Zeynəddin Şabanov, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının dosenti Səbirə Neymətzadə, kafedranın doktorantı Araz Əliyev və fakültənin II kurs magistrantı Elza Məmmədova mövzu ətrafında çıxışlar etmişlər.

**05 may 2021-ci il tarixində** Tələbə Həmkarlar İttifaqı Komitəsi və Filologiya fakültəsinin birgə təşkilatçılığı ilə tələbələr arasında “Nizami dühası” mövzusunda esse müsabiqəsi keçirilmişdir.

**06 may 2021-ci il tarixində** Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Kimya fakültəsində “Nizami ili” çərçivəsində söz adamları ilə görüş" layihəsinin növbəti görüşü yazıçı, jurnalist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Rusiya Yazıçılar İttifaqının üzvü, Beynəlxalq Yazıçılar Gildiyasının üzvü, Əməkdar jurnalist Varis Yolçuyev  ilə keçirilmişdir. Görüşdə Kimya fakültəsinin tələbələri və TGT-nin fəalları iştirak etmişlər.

**06 may 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyinin təşkil etdiyi müsabiqəsinin qalibi olmuşdur.

**21 may 2021-ci il tarixində** Filologiya fakültəsində “Poeziyamızın sönməz günəşi” adlı onlayn tədbir keçirilmişdir. Tədbirdə dosent Rəna Mahmudova, Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası kafedrasının müdiri professor Hüseyn Əsgərov, Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov, Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası kafedrasının dosentləri - Rəhilə Quliyeva, Məhbubə Qurbanova və Əhəd Cavadov, Filologiya fakültəsinin III kurs tələbəsi Aysel Seyidova mövzu ətrafında çıxışlar etmişlər.

**26 may 2021-ci il tarixində** BDU-nun Filologiya fakültəsi və Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə “Nizami yaradıcılığı dünya mədəniyyəti kontekstində” adlı onlayn konfrans keçirilmişdir. Konfransda Akademiyanın müəllimləri və BDU-nun Filologiya fakültəsinin müəllimləri mövzu ətrafında məruzələrlə çıxışlar etmişlər.

**31 may 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsində Tələbə Hımkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə “Şərq İntibahının zirvəsi-Nizami” adlı dəyirmi masa keçirilmişdir. Dəyirmi masada fakültənin müəllimləri Mehdi Kazımov, Əsmətxanım Məmmədova, Heybət Heybətov, Şahin Yusifli mövzu ətrafında çıxışlar etmişlər.

**04 iyun 2021-ci il tarixində** Filologiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Nizami Gəncəvinin “Yeddi gözəl” əsərinin müzakirəsi keçirilmişdir. Müzakirədə fakültənin tələbələri Nigar Xanəliyeva, Gülnar Axundova, Rəhiməxanım Əlipənahova, Səbinə Əliyeva mövzu ətrafındsa çıxışlar etmişlər.

**16 iyun 2021-ci il tarixində** BDU tələbələri Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə “Nizami İli” çərçivəsində keçirilən “Tələbə baharı” Ümumrespublika tələbə yaradıcılıq festivalında qalib olublar.

**02 avqust 2021-ci il tarixində** BDU, ASAN Könüllüləri Təşkilatı və “Mədəniyyət carçısı” proqramının birgə təşkilatçılığı ilə BDU-da “Nizami dünyası” kompozisiyası nümayiş olunmuşdur. Kompozisiyada ASAN və BDU Könüllülərinin təqdimatında Nizaminin əsərlərindən ibarət səhnəciklər nümayiş etdirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov, qurumun aparat rəhbəri Fuad Qarayev, ASAN Könüllüləri Təşkilatının sədri Emiliya Bayramova, BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev və digər struktur bölmələrinin rəhbərləri, ASAN könüllüləri və tələbələr iştirak etmişlər.

**14 sentyabr 2021-ci il tarixində** Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Nizami ili” nə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Filologiya fakültəsinin II kurs tələbəsi Nigar Xanəliyeva 2021-ci ilin ölkəmizdə “Nizami Gəncəvi İli” elan edilməsi ilə bağlı BDU TGT-nin həyata keçirdiyi silsilə tədbirlər haqqında məlumat verib. Daha sonra çıxış edən tələbələr, TGT-nin sədr müavini Ələkbər Həsənov, Filologiya fakültəsinin tələbəsi Aytac Əliyeva və Pərvin Vəlizadə dahi Nizaminin "İsgəndərnamə" poemasında İsgəndər – Zülqərneyn xəttinin təhlili mövzusunda müzakirə aparıblar.

**23 sentyabr 2021-ci il tarixində** Tədbirlər Planına uyğun olaraq 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilməsi münasibətilə 2020/2021-ci tədris ili üçün BDU-da Nizami Gəncəvi adına xüsusi təqaüd təsis edilmişdir. Hər fakültədən bir tələbə olmaqla, Filologiya və Şərqşünaslıq fakültələri üzrə bakalavriat pilləsində əyani formada təhsil alan 2020/2021-ci tədris ilinin II semestr üzrə ən yüksək nəticə göstərən tələbələrinə Nizami Gəncəvi adına təqaüd veriləcəkdir.

**05 oktyabr 2021-ci il tarixində** Şərqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Köln Universitetinin professoru "Nizami həftələri" layihəsi çərçivəsində BDU-da mühazirəsi keçirilib. Tədbirdə BDU-nun rektoru Elçin Babayev, Almaniyanın Azərbaycandakı səfirliyinin birinci katibi Andreas Hohlt, səfirliyin əməkdaşları, Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti və tələbələri, eləcə də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Slavyan Universitetinin tələbələri iştirak ediblər.

**12 oktyabr 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsinin və Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Nizaminin insan fəlsəfəsi" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı "Nizaminin ictimai idealı", Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zəhra Allahverdiyeva "Nizaminin insan fəlsəfəsi" mövzusunda məruzə etmişlər.

**25 oktyabr 2021-ci il tarixində** Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi ili"nə həsr olunmuş dəyirmi masa keçirilib. Dəyirmi masada BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının professoru Mətanət Abdullayeva, Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli və Filologiya fakültəsinin tələbəsi, Tələbə Gənclər Təşkilatının sədr müavini Ələkbər Həsənov, MDU-dan Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova, müəllimlərdən Ayna Babazadə, Səadət Ağakişiyeva və Pedaqoji fakültənin tələbəsi Xədicə Cəfərli məruzələrlə çıxış etmişlər.

**22 noyabr 2021-ci il tarixində** Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Şərqşünaslıq fakültəsində Nizami Gəncəvi ilinə həsr olunmuş Xəmsə yarışması turniri

keçirilmişdir. Tədbirdə Şərqşünaslıq fakültəsinin dekanı vəzifəsini icra edən Tərlan Məlikov və fakültənin dekan müavini Şahin Yusifli çıxış etmişlər.

**08 dekabr 2021-ci il tarixində** Şərqşünaslıq  və Kitabxanaçılıq-informasiya fakültələrinin birgə təşkilatçılığı ilə “Nizami Gəncəvi ədəbi irsi Şərq mədəniyyəti kontekstində” mövzusunda elmi seminar keçirilmişdir. Elmi seminarda  Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Şərqşünaslıq fakültəsinin dekan müavini Nigar İsmayılzadə, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Milli Məclisin üzvü, akademik Rəfael Hüseynov “Nizami Gəncəvi “Xəmsə”sində gələcək quruculuğu və şairin kitab mədəniyyətinin inkişafına təsiri”, ədəbiyyatşünas Əsəd Cahangir “Nizami Gəncəvi irsində insan idealı və şərq fəlsəfəsi”, BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan “Nizami Gəncəvi əlyazmaları dünya arxiv və kitabxanalarında” mövzularında məruzə ilə çıxış etmişlər.

**23-24 dekabr tarixlərində** BDU-da Bakı Dövlət Universiteti və Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının birgə təşkilatçılığı ilə “Böyük Azərbaycan şairi Nizami Gəncəvi və Şərq-Qərb ədəbi-mədəni irsi” mövzusunda Beynəlxalq  elmi konfrans keçirilmişdir. Beynəxalq elmi konfransda BDU-nun rektoru Elçin Babayev, Moskva Dövlət Universitetinin Bakı filialının Humanitar elmlər  kafedrasının professoru Nazim Səfərov, Milli Məclisin üzvü, akademik Nizami Cəfərov, AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Milli Məclisin üzvü, BDU-nun professoru Jalə Əliyeva, Türkiyə Cümhuriyyətinin Fırat Universitetinin professoru Süleyman Kaan Yalçın, Fırat Universitetinin rektoru, professor Fahrettin Göktaş (onlayn), Tacikistan Respublikası Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının direktoru Şodimuhamməd Sufizodə, Özbəkistan Respublikasının Cizzax Dövlət Pedaqoji İnstitutunun professoru Gülcaxon Cumanazarova, Türkiyə Cümhuriyyətinin Bilkənt Universitetinin professoru Rasim Özyürek (onlayn), Kazan Dövlət Mədəniyyət İnstitutunun professoru Güzalya Həziyeva, Türkiyə Cümhuriyyətinin Akdeniz Universitetinin professoru Oğuzxan Qaraburqu məruzələrlə çıxış etmişlər. Konfransda “Nizami Gəncəvi bəşəri ideyalar carçısı kimi”, “Fəlsəfi fikir tarixində Nizami fenomeni”, “Azərbaycan ədəbiyyatında Nizami ənənələri”, “Nizami və tarix”, “Nizami və folklor”, “Nizami və dünya ədəbiyyatı”, “Nizami və türk xalqları ədəbiyyatı”, “Nizami əsərlərinin mənbələri”, “Nizami yaradıcılığında didaktika”, “Nizaminin ictimai baxışları”, “Nizami irsi dünya mədəniyyəti kontekstində”, “Nizamişünaslıq müasir mərhələdə”, “Nizami əlyazmalarının mətnşünaslıq

baxımından öyrənilməsi", Nizami əsərlərinin tərcüməsi məsələləri: təcrübə, problemlər, həll yolları" və başqa istiqamətlər üzrə müzakirələr aparılmışdır.

**30 dekabr 2021-ci il tarixində** Bakı Dövlət Universitetinin "SABAH" qruplarının təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Dahi Nizami Azərbaycandan Norveçədək (norveçli tədqiqatçının gözü ilə)" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə BDU-nun "SABAH" mərkəzinin rəhbəri İradə Süleymanova, norveçli tədqiqatçı Ragnhild Torin, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi dosent Əzizağa Nəcəfzadə, Nizami əlyazmalarının tədqiqi şöbəsinin aparıcı elmi işçisi, BSU-nun Azərbaycan multikulturalizmi kafedrasının müdiri İbrahim Quliyev, Mirzə Ələkbər Sabir Fondunun təsisçisi və prezidenti dosent Sevda Tahirli çıxış etmişlər.

## Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar keçirilən tədbirlər

Azərbaycan Respublikası təhsil nazirinin 2021-ci il 26 iyul tarixli F-372 nömrəli əmri ilə təsdiq edilmiş "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planı"na müvafiq olaraq Bakı Dövlət Universitetində Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi məqsədilə Universitet rektorunun əmri ilə təsdiq olunmuş tədbirlər planı hazırlanmış və bu plana uyğun olaraq il ərzində Aşıq Ələsgərin zəngin yaradıcılığına həsr olunmuş tədbirlər həyata keçirilmişdir. Ümumilikdə il ərzində fakültə, struktur, kollec və tələbə təşkilatları tərəfindən bu sitiqamətdə **1 konfrans, 1 sərgi, 2 elmi seminar, 1 ədəbi-bədii gecə, 1 açıq dərs və 1 dəyirmi masa** keçirilmiş və KİV-lərdə işıqlandırılmışdır.

**26 may 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə Aşıq Ələsgərin 200 illik yubileyinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, zərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, Milli Məclisin deputatı Naqif Həmzəyev, BDU-nun kafedra müdiri Knyaz Aslan çıxış etmişlər.

**20 oktyabr 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsinin və BDU-nun Elmi Kitabxanasının birgə təşkilatçılığı ilə Aşıq Ələsgərin həyat və yaradıcılığını əks etdirən kitab sərgisi təşkil olunmuşdur.

**29 oktyabr 2021-ci il tarixində** BDU-nun nəzdində İqtisadiyyat və Humanitar kollecində Aşiq Aşıq Ələsgər mövzusunda açıq dərs keçirilmişdir. Açıq dərsdə BDU nəzdində İqtisadiyyat və Humanitar Kollecin müəllimi Şəkər Abbasova və kollecin bir qrup tələbələri iştirak etmişlər.

**26 noyabr 2021-ci il tarixində** Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Aşıq Ələsgərin yaradıcılığında milli-mənəvi dəyərlər" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə BDU-nun professoru Səhər Orucova, MDU-nun "Humanitar fənlər" kafedrasının müdiri Esmira Cəfərova, "Dədə Ələsgər Ocağı" İctimai Birliyini təmsil edən Aşıq Ələsgər nəslinin davamçıları Ş.Ələsgərli və A.Ələsgərli məruzələrlə çıxış etmişlər.

**07 dekabr 2021-ci il tarixində** Kitabxanaçılıq-informasiya fakültəsi və Mədəniyyət-Yaradıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə "Ələsgərəm hər elmdən halıyam" adlı ədəbi-bədii gecə keçirilmişdir. Ədəbi-bədii gecədə BDU-nun rektoru Elçin Babayev, Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı, Millət vəkili Naqif Həmzəyev, Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli çıxış etmiş, daha sonra tədbir fakültə tələbələrinin və Mədəniyyət-Yaradıcılıq Mərkəzinin ansamblının ifasında bədii hissə ilə davam etmişdir.

**15 dekabr 2021-ci il tarixində** Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi və Filologiya fakültəsinin birgə təşkilatçılığı ilə "Aşıq sənəti və Aşıq Ələsgər" mövzusunda elmi seminar keçirilmişdir. Seminarda BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucova, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, aşıq Altay Məmmədov, BDU-nun "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasının müdiri Almara Nəbiyeva məruzələrlə çıxış etmişlər.

**27 dekabr 2021-ci il tarixində** BDU-nun nəzdində İqtisadiyyat və Humanitar kollecində "Aşıq Ələsgər dünyası" adlı konfrans keçirilmişdir. Konfransda BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin direktoru, professor Səhər Orucova, "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin humanitar məsələlər üzrə sədr müavini Güllü Eldar Tomarlı, "Dədə Qorqud" Elmi Tədqiqat Laboratoriyasının müdiri Almara Nəbiyeva məruzələrlə çıxış etmişlər.

**Tələbə Təşkilatlarının fəaliyyəti**

Cari il ərzində Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və BDU Könüllüləri Təşkilatı Universitetin Tədbirlər Planına uyğun olaraq bir sıra layihələr və tədbirlər həyata keçirmişlər. Belə ki, tələbə gənclərə vətənpərvərlik ruhunun aşılanması, milli mənəvi dəyərlərin qorunub saxlanılması və geniş təbliği, zərərli vərdişlərə və neqativ hallara qarşı müabrizə, məişət zorakılığı, onların özünüinkişafının üzə çıxarılması və elmə və təhsilə marağının artırılması istiqamətində **Tələbə Gənclər Təşkilatı tərəfindən il ərzində 300-dən çox tədbir və təlimlər, Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən isə 120 dən çox onlayn tədbir, BDU Könüllüləri Təşkilatı tərəfindən isə 30 tədbir, təlim və ziyarət keçirilmişdir.** Tələbə təşkilatları əsasən Vətən müharibəsi şəhidləri və qazilərə diqqət və qayğı göstərilməsi və onların tələbələr arasında tanıdılması, milli mənəvi dəyərlərin qorunması, narkomaniya və digər zərərli vərdişlərin mənfi təsirləri, ekoloji çirklənmə, gənclərin layihələrinin dəstəklənməsi, onların asudə vaxtlarının səmərəli təşkili, ailə və məişət zorakılığı, vətənpərvərlik ruhunda yetişmələri və s. mövzularda maarifləndirici tədbirlər həyata keçirmişlər. Tələbə Təşkilatlarının nəzdində fəaliyyət göstərən klubların fəaliyyətini də xüsusilə qeyd etmək lazımdır. Belə ki. **THİK-nin nəzdində fəaliyyət göstərən "Genius club", "Gənc İntellektuallar Məktəbi", TGT-nin nəzdində fəaliyyət göstərən "Book club", ""Eco club", "Art club" və s** klublar yuxarıda qeyd olunan istiqamətlərdə uğurla fəaliyyət göstərmişlər. Ötən müddət ərzində BDU könüllülərinin fəaliyyəti də nəzərəçarpan şəkildə inkişaf etmişdir. Belə ki, Könüllülər hərəkatının tələbələr arasında təşviq edilməsi istiqamətində BDU Könüllülər hərəkatının strukturu formalaşdırılmış, koordinatorları müəyyən edilmiş və hərəkata yeni üzvlərin cəlb olunması istiqamətində fakültələrdə onlayn görüşlər keçirilmişdir. Əsasən 1-ci və 2-ci kurs tələbələrinin könüllülər hərəkatına cəlb edilməsi istiqamətində müsahibələr həyata keçirmişlər. Hazırda təşkilatın fakültələrdə qeydiyyatı tamamlanmış və **700 nəfərdən çox aktiv üzvü vardır.** Həmçinin qeyd etmək lazımdır ki, car il ərzində **100 nəfərə yaxın könüllü** Universitetin müxtəlif struktur bölmələri, kafedra və fakültələrdə könüllü şəkildə fəaliyyət göstərmiş, Universitetdə həyata keçirilən könüllülük hərəkatına öz töhfələrini vermişlər.

Həmçinin qeyd olunmalıdır ki, Tələbə təşkilatlarının 7 nəfər üzvündən formalaşdırılan Tələbə Nəzarət Qrupu cari ilin qış və yay imtahan sessiyalarında sessiyanın ümumi gedişatında

nəzarət funksiyasını həyata keçirmişdir. BDU Tələbə Nəzarət Qrupu tələbələri onlayn mühazirələrdə fəal iştiraka təşviq etmək, imtahan sessiyasında şəffaflığın təmin olunması, imtahanlara təhsilalanların nəzarətinin həyata keçirilməsi, həmçinin tələbə təkliflərinin müzakirəsi məqsədilə yaradılıb. BDU Tələbə Nəzarət Qrupuna Universitetin tələbə təşkilatlarının - Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), Tələbə Gənclər Təşkilatı (TGT), Tələbə Elmi Cəmiyyəti (TEC) və BDU Könüllüləri qrupunun nümayəndələri daxildir.

**Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri R.O.Səmədov**